# Şuşa şəhəri Qoşulmama Hərəkatının tarixinə birdəfəlik yazılmışdır

## *Ekspertlərin fikrincə, dövlət başçımız bu qurumu təşkilata çevirmək əzmindədir*

**Bu sətirlərin qələmə alınmasının səbəbi Türkiyə mətbuatında Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılmasının bir illiyi münasibətilə verilmiş informasiya oldu.**




Orada qeyd edilir ki, 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş Xüsusi sessiyasının keçirilməsi, habelə ötən ilin mart və dekabr aylarında İnsan Hüquqları Şurası və Baş Assambleya tərəfindən qəbul edilmiş "COVID-19 pandemiyası ilə mübarizədə bütün ölkələr üçün peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi"nə dair qətnamələr Qoşulmama Hərəkatına üzv dövlətlər adından irəli sürülmüşdür.

**(ardı 4-cü səhifədə)**

# Şuşa şəhəri Qoşulmama Hərəkatının tarixinə birdəfəlik yazılmışdır




**Fəaliyyətimizin ilk günlərindən Azərbaycan Qoşulmama Hərəkatının bütün təşəbbüslərinə çox fəal cəlb olunmuşdur... Biz 2019-cu ildə Bakıda Qoşulmama Hərəkatının Zirvə toplantısını təşkil edərək müvəffəqiyyətlə keçirdik və 2019–2022-ci ilə qədər sədrliyi üzərimizə götürdük. Qoşulmama Hərəkatına sədrliyimizin yenə də 120 ölkənin yekdil qərarı ilə 2023-cü ilin axırına kimi uzadılmasını ölkəmizə böyük bir hörmət və fəaliyyətimizin qiymətləndirilməsi əlaməti kimi qəbul edirik.**

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**(əvvəli 1-ci səhifədə)**

Yeri gəlmişkən, Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop bu il iyunun 30-da Heydər Əliyev Mərkəzində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr olunan Bakı konfransında çıxışı zamanı demişdi ki, Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının dünyada nüfuzu artıb. Həmçinin Azərbaycan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinə də uğurla sədrlik edəcək. Azərbaycan çox bacarıqlı və müdrik siyasət yürüdür. Ərazi bütövlüyünü bərpa edən Azərbaycan regionda sülhün və təhlükəsizliyin təmin edilməsi üçün bütün səylərini ortaya qoyur.

Xatırladaq ki, bu beynəlxalq təşkilatın yaradılmasından 60 il keçsə də, onun parlament şəbəkəsi və gənclər təşkilatı yox idi. Eləcə də, bu qurumun təklifi ilə BMT-nin heç bir tədbiri keçirilməmişdi. Azərbaycanın sədrliyi dövründə isə Qoşulmama Hərəkatının pandemiya ilə mübarizədə gücləri birləşdirmək məqsədilə öncə Təmas qrupu yaradılmış, sonra isə BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi təklif edilmiş və buna nail olunmuşdur.

COVID-19 problemi nisbətən səngidikdən sonra isə bilavasitə İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının parlament şəbəkəsi də təsis edilmişdir, gənclər təşkilatı da.

Xatırladaq ki, 2020-ci il mayın 4-də Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas qrupu formatında Zirvə görüşü keçirilirdi. Həmin tədbirdə çıxış edən dövlət başçımız Azərbaycanın sədr kimi üzərinə düşən vəzifələri layiqincə yerinə yetirdiyini söylədi: "2019-cu il oktyabr ayının 25–26-da Qoşulmama Hərəkatının Bakıda XVIII Zirvə görüşü keçirildi. Zirvə görüşündə qəbul olunmuş Bakı Bəyannaməsi və Bakı Yekun sənədində beynəlxalq hüququn prinsipləri öz əksini tapdı. Eyni zamanda, bu sənədlərdə 65 illiyi bu günlərdə qeyd edilən Bandunq prinsiplərində yer alan dövlətlərin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına bir daha dəstək ifadə olundu. 120 üzv dövlətin yekdil dəstəyi ilə Azərbaycan üç il ərzində Qoşulmama Hərəkatına sədrlik edəcək. Bizə göstərilən böyük inam və etimada görə bir daha minnətdarlığımı bildirirəm. Sədrliyi öz üzərimizə götürərkən mən bəyan etdim ki, Azərbaycan beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacaq, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacaqdır".

Onu da vurğulayaq ki, Prezident İlham Əliyevin sədri olduğu Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının da məhz dövlət başçımızın təşəbbüsü ilə 2020-ci il aprelin 10-da COVID-19-la bağlı Zirvə görüşü keçirilmişdir. Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru həmin Zirvə görüşündə də iştirak etmiş və dəyərli tövsiyələrini vermişdi.

İndi isə türkiyəli həmkarımızın yada saldığı məqam barədə. Ötən il noyabrın 28-də İspaniyanın paytaxtı Madrid şəhərində keçirilən Parlamentlərarası İttifaqın 143-cü Assambleyası çərçivəsində Qoşulmama Hərəkatının (QH) sədri qismində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü əsasında QH-nin Parlament Şəbəkəsinin təsis iclası keçirilmişdi. Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentlərinin sədrləri, sədr müavinləri və deputatlarının iştirakı ilə keçirilmiş iclasda təşkilatın tarixində yeni səhifə açan və üzv dövlətlər arasında parlamentlərarası ölçünün inkişafına xidmət edəcək Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi təsis edilmişdi.

İclasın yekununda qəbul edilmiş Madrid Bəyannaməsində Parlament Şəbəkəsinin Hərəkatın fəaliyyətinə verəcəyi töhfə və həyata keçirəcəyi funksiyalar vurğulanır, Azərbaycanın təşkilata səmərəli sədrliyi alqışlanır, həmin şəbəkənin növbəti iclasının 2022-ci ildə ölkəmizdə keçiriləcəyi bildirilirdi.

... Bəli, bu il iyunun 30-da Heydər Əliyev Mərkəzində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr olunan Bakı konfransı keçirildi. Həmin tədbirdə çıxış edən dövlət başçımız dedi ki, Azərbaycanın Qoşulmama Hərəkatının sədri qismində irəli sürdüyü təşəbbüslər həmrəyliyi və qarşılıqlı dəstəyi möhkəmləndirməyə, təsisatımızın institusional inkişafına və bəlkə də, müəyyən mərhələdə onun təşkilata çevrilməsinə yönəlib: "Bilirəm ki, Qoşulmama Hərəkatının tarixində bununla bağlı müzakirələr olub və bəlkə də, bu müzakirələri yenidən başlamağın vaxtı çatıb. Çünki, bu gün biz dünyada qlobal qütbləşmənin, müharibənin, münaqişənin, proqnozlaşdırıla bilinməyən vəziyyətin, ərzaq, enerji və humanitar böhranların şahidi oluruq".

Bəs, Şuşa şəhəri bu təsisatın tarixinə necə yazılıb? Xatırladaq ki, bu il iyulun 25-dən 29-dək Qoşulmama Hərəkatının üzvü olan ölkələrin gənclərini bir araya gətirən (bu qurumun tarixində ilk dəfə olaraq) Gənclər Sammiti çərçivəsində qurumun gənclər təşkilatı yaradılıb. Bu məqsədlə imzalanan "Şuşa Sazişi" adlı sənəd Şuşanın Qoşulmama Hərəkatının tarixində birdəfəlik qeyd olunmasına xidmət edəcək.

Rəsmi materiallarda oxuyuruq ki, Şuşa razılaşmasına əsasən, Qoşulmama Hərəkatının Gənclər Təşkilatı 2021-ci il oktyabrın 4-də Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə ərsəyə gələn Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin əsasında yaradılıb. Sammitin Şuşa sessiyası çərçivəsində daimi katibliyi Bakıda yerləşəcək Qoşulmama Hərəkatı Gənclər Təşkilatının əsasnaməsi, təşkilatın loqosu və bayrağı təsdiq edilib.

Yeni Prezident İlham Əliyevin istənilən təklif və ya təşəbbüslərinin bir istiqaməti bəşəri əhəmiyyət kəsb etsə də, digər cəhəti mütləq milli mənafelərimizin qorunmasını təmin edir.

**İttifaq MİRZƏBƏYLİ,**
**"Xalq qəzeti"**